BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2013

**UOT: 930255**

# ŞİMALİ AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ SƏNƏDLƏRİNDƏ

**C.Ş.QULİYEV**
***Lənkəran Dövlət Universiteti***
***cemil.quliyev.1983@mail.ru***

*Məqalə XIX əsrin əvvəllərində Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra kənd təsərrüfatının vəziyyətinə həsr olunmuşdur. Aparılan araşdırmalar nəticəsində müəllif belə qənaətə gəlir ki, bütün xanlıqlarda kənd təsərrüfatında oxşar vəziyyət hökm sürürdü, kənd əhalisinin başlıca məşğuliyyəti əkinçilik olub, əsasən, buğda çəltik və arpa yetişdirilirdi. Bütün bunlar məqalədə ilkin mənbə xarakteri daşıyan Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında obyektiv şəkildə işıqlandırılmışdır.*

**Açar sözlər:** kənd təsərrüfatı, vəziyyət, Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə tarixi Azərbaycan torpaqları Rusiya və İran arasında ikiyə parçalandıqdan və bütövlükdə Qafqazın Rusiya İmperiyası tərəfindən işğal edilməsindən sonra, Tiflis şəhəri Cənubi Qafqazın inzibati və mədəni mərkəzi kimi fəaliyyət göstərməyə başlamışdır. Qafqazda yaşayan yüzlərlə xalqı idarə etmək üçün çar Rusiyası orada bir sıra inzibati təşkilat, idarə və cəmiyyətlər açmış, müxtəlif elmi və mədəni müəssisələr təşkil etmişdir. XIX əsrin əvvəllərindən etibarən, həmin idarə və təşkilatlar müxtəlif kitab, məcmuə, jurnal və qəzetlər çap etməyə başlamışdır. Bunların arasında "Tiflis quberniyasının təsviri üçün məcmuə", "Qafqazın təqvimi", "Qafqaz dağlıları haqqında məlumatlar toplusu", "Kənd təsərrüfatı üzrə Qafqaz İmperator Cəmiyyətinin məcmuəsi"ni və s. göstərmək olar. XIX əsrdə Tiflisdə nəşr olunan məcmuələr arasında Şimali Azərbaycan xanlıqlarının ictimai-iqtisadi, siyasi, eləcə də Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı probleminə dair külli miqdarda sənəd və materialları özündə cəmləşdirən "Qafqaz Arxeoloji Komissiyasının Aktları" mühüm yer tutur. Qeyd etmək lazımdır ki, Qafqaz Arexeoqrafiya Komissiyasının Aktları görkəmli şərqşünas və qafqazşünas A.P.Berjenin redaktorluğu ilə 1866-ci ildən nəşrə hazırlanaraq oxucuların

diqqətinə çatdırılmışdır. Azərbaycanın bəhs olunan dövrünə aid qymətli mənbə olan Aktlarda Şimali Azərbaycan xanlıqlarının ictimai-iqtisadi və siyasi həyatı, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına dair külli miqdarda sənəd və materiallar mövcuddur.

Şimali Azərbaycan xanlıqlarının siyasi, ictimai-iqtisadi vəziyyətinə dair çoxsaylı tədqiqatlar aparılsa da, Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında bu günədək bəhs olunan məsələ demək olar ki, tədqiqatçılar tərəfindən işlənilməmişdir.

Məlumdur ki, uzun müddət İranın hökmranlığı altında olmuş Azərbaycan XVIII əsrin ortalarında yenidən istiqlaliyyət əldə etdi. Lakin həmin dövrdə Azərbaycan vahid dövlət deyil, siyasi cəhətdən müstəqil dövlət qurumlarından-xanlıqlardan ibarət idi. Görkəmli Azərbaycan tarixçisi A.A.Bakıxanov Şimali Azərbaycan xanlıqlarının yaranması barədə yazırdı: “İndi də Nadir şahın ölümündən sonra Dağıstan və Şirvanın nə halda olduğunu nəzərdən keçirək. Nadir şahın vəfatından sonra İran qoşunu bu ölkədən çıxıb getdi. Hər bir vilayətdə bir həşəmət sahibi baş qaldıraraq, istiqlaliyyətdən dəm vurub başqasına tabe olmurdu. Quba və Salyan hakimi Hüseynəli xan sultan Əhməd xan oğlu Xudat qalasını köçürüb, indiki Quba şəhərinin Qudyal adlı yerində tikdirməyə başladı. İğtişaş zamanı da bu ölkənin özbaşına qalan bir çox mahallarını itaətə məcbur etdi. Dərbəndlilər İmamqulu xanın oğlu Məhəmməd-həsən bəy Qorçunu xanlığa seçdilər. Nadir şahın yaxın əmirlərindən sayılan bakılı Mirzə Məhəmməd xan Dərgah xan oğlu Bakı ölkəsini müstəqil olaraq ixtiyarına keçirdi. Xançobanı tayfasından olan Əsgər bəy Sərkərarın oğulları Şirvan elatı arasında hakimiyyət bayrağı qaldırdılar. Nuxulu Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağı qaldıraraq Şəki, Qəbələ və Ərəş mahallarını özünə tabe etdi” [4, 66]. Məlumatlardan da göründüyü kimi, Nadirin ölümündən sonra Şimali Azərbaycan ərazisində siyasi cəhətdən müstəqil olan ayrı-ayrı xanlıqlar meydana gəlmişdir. Bu isə Azərbaycanın siyasi tarixində ardı-arası kəsilməyən feodal vuruşmaları, qanlı saray çevrilişləri və yadelli işğalçılara qarşı mübarizə ilə bağlı olmasını fikrini söyləməyə əsas verir. Bununla belə, ölkə ərazisinin kiçik dövlətlərə-xanlıqlara parçalanması, xanlar arasında gedən ara müharibələri Azərbaycanda məhsuldar qüvvələrin, o cümlədən kənd təsərrüfatının inkişafına əngəl törədirdi. Lakin bu heç də o demək deyildir ki, kənd təsərrüfatında durğunluq və tənəzzül baş vermişdi. Əldə olan materialların böyük əksəriyyəti, xüsusilə Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında ayrı-ayrı xanlıqlar üzrə kənd təsərrüfatının vəziyyətini aşağıdakı kimi səciyyələndirə bilərik.

Şamaxı xanlığında kənd əhalisinin başlıca məşğuliyyəti əkinçilik idi, əsasən buğda, arpa və çəltik əkirdilər [6, 103-123]. Salyanətrafı ərazilərdə və Seyidan adlanan yerdə əsasən çəltikçiliklə məşğul olurdular [7, 20]. Bu çəltik əkin sahələri yerli bəylərin mülkiyyətində idi və bütün işləri rəncbərlər görürdülər.

XVIII əsrin son rübü-XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi quruluşundan bəhs edən tədqiqatçı alim M.M.Gülmalıyev yazır

ki, Şamaxı xanlığının aran torpaqlarında, həmçinin Şamaxı və Salyan şəhərlərində və onların həndəvərində ipəkçilik, barama istehsalı və tütünçülüklə məşğul olurdular. Şirvan Zaqafqaziyanın ən zəngin əyalətidir. Şirvanın mühüm hissəsində ipəkçiliklə məşğul olurlar və burada çoxlu bağ var. Şamaxı xanlığı Rusiya tərəfindən işğal edildikdən üç il sonra orada 5000 puda yaxın barama istehsal olunmuşdu. Azərbaycanın sosial-iqtisadi tarixinin ilk sovet tədqiqatçılarından biri Ə.Qubaydulinin verdiyi məlumata görə, Şamaxı xanlığında ipəkçilik çox inkişaf etmişdi. Burada 70-ə qədər tut bağı olan bəylər var idi [7, 21].

Xanlığın aran yerlərində tut bağları ilə yanaşı meyvə bağları salınmış, burada bağçılıq və üzümçülüklə məşğul olurdular. Xanlığın Xozayurt və Sərdərin mahallarında meyvəçilik, Gürcüvan və Mədrəsə kəndlərində isə üzümçülük daha çox inkişaf etmişdi [8, 135]. Burada tut bağlarının sahəsi 2600 desyatinə, meyvə bağlarının sahəsi 800 desyatinə, üzümlüklərin sahəsi isə 600 desyatinə çatırdı. Xanlığın bu hissəsində az da olsa pambıqçılıqla məşğul olurdular. Burada pambığın "qara qoza" növünü yetişdirir və istehsal olunan məhsul onu yetişdirənlərin özlərinin istifadəsinə gedirdi. Şamaxı xanlığında pambıqçılıq barəsində o dövrdə bu ərazidə olmuş səyyahlar da məlumat verirlər [1, sənəd 85, 48]. Qeyd edək ki, adı çəkilən məlumatları Şamaxı xanlığının müasir dövr tədqiqatçılarından olan N.Bayramova da təsdiqləyir. Müəllif yazır ki, Şamaxı yaxınlığında Pirsaat çayından suvarma məqsədilə üç arx çəkilmişdi. Belə arxlardan Xan arxı, Qoşqar arxını xüsusilə qeyd etmək olar [3, 52].

Şamaxı xanlığında, xüsusən də onun dağlıq hissəsində geniş surətdə maldarlıqla da məşğul olurdular. Dağlıq hissədən fərqli olaraq, onun düzənlik yerlərində qoyunçuluqla çox az məşğul olur, əsasən iribuynuzlu heyvan saxlayırdılar. Cüzi də olsa burada dəvəçilik də inkişaf etmişdi [3, 53].

**Bakı xanlığının** ərazisinin torpaqları əsasən qumlu torpaqlar olduğundan suvarma üçün zəruri olan suyun olmaması üzündən burada əkinçilik zəif inkişaf etmiş, əhali əsasən üzümçülük və zəfərançılıqla məşğul olurdu [7, 25]. Yalnız iqlim şəraiti Bakı xanlığının digər yerlərindən fərqlənən Güzdək, Qobu, Saray və Hökməli kəndlərində əkinçilik az-çox inkişaf etmişdi. Bu kəndlərdə dəmyə buğda və arpa əkilirdi. Onlar buğda əkininə daha çox əhəmiyyət verirdilər. Burada orta hesabla 57600 pud buğda, 38 min pud arpa məhsulu götürürdülər [7, 25]. Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərindən məlum olur ki, Bakı xanlığı kəndliləri bostançılıqla da məşğul olur, qarpız və yemiş yetişdirirdilər. Bostanlar əsasən quyu suyu ilə suvarılırdı. Xanlıqda az da olsa pambıqçılıqla da məşğul olurdular. Bakı xanlığında 600 pud zəfəran, 3000 pud pambıq istehsal olunurdu [2, sənəd 95, 81].

Bakı xanlığında, xüsusilə Abşeron yarımadasında üzümçülük geniş inkişaf tapmışdı. Zəfəran becərilməsi isə əhalinin əsas məşğuliyyəti sırasında idi. Abşeron yarımadasının 11 kəndinin sakinləri bu gəlirli təsərrüfat sahəsi ilə məşğul olurdu. İldə orta hesabla 600-1000 puddan çox məhsul götürürdülər. Zəfərançılıqda qadın və uşaq əməyindən geniş istifadə olunurdu[2, sənəd 37, 38].

Bakı xanlığında maldarlıq zəif inkişaf etmişdi. Burada iribuynuzlu heyvanların sayı 20 minə, qoyunların sayı 30 minə çatırdı. Burada dəvə də saxlanılırdı. Xanlığın əhalisi balıqçılıqla məşğul olurdu. Balıq məhsulları əmtəə xarakteri daşıyır, balıqçılar əldə etdiyi məhsulları satış bazarına çıxarır, hətta ixrac edirdilər. İxrac olunan balıq məhsulları içərisində suiti yağı və dərisi də var idi. Bu məhsullar və balıq kürüsü Rusiyaya da ixrac olunurdu [2, sənəd 37, 38].

Azərbaycanın digər xanlıqlarında olduğu kimi **Naxçıvan xanlığı** əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Zəngəzur kəndindən başlamış Araz çayı vadisinə qədər uzanan geniş ərazidə yerləşən Naxçıvan xanlığı Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edirdi. Görkəmli rus tədqiqatçısı S.P.Zelinskinin məlumatlarına istinad edən F.Əliyev Naxçıvan xanlığının xarici görünüşünü təsvir edərək yazır: "Susuz şoran çöllər, müxtəlif formada olan dağ qayalıqları, dərə-təpəli sahələr, gözəl otlaq yerləri, təsəvvüredilməz düzənliklər, səs-küylü saysız-hesabsız vadilər və dərələrdən axan və yayda tamamilə quruyan dağ selləri bu uzaq guşənin xarici aləmini özündə əks edir"[5, 21].

Tarixi ədəbiyyatın və dövrün mənbələrinin məlumatına görə Naxçıvan xanlığında əsas kənd təsərrüfatı sahəsi taxılçılıq idi. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər [5, 34]. Burada, Azərbaycanın başqa yerlərinə nisbətən pambıqçılıqla daha geniş məşğul olurdular. "Naxçıvan əyalətinin statistik təsvir" adlı mənbənin məlumatına əsasən deyə bilərik ki, xanlığın Rusiya tərəfindən işğal edildiyi il 6 min pud pambıq yetişdirilmişdir [9, 86]. Mütəxəssislərin də qeyd etdiyi kimi, yuxarıda göstərilən rəqəmlər 1828-ci ilə aid olduğundan, onlar istər taxıl və istərsə də pambıq istehsalında düzgün mənzərəni yarada bilməz. Nəzərə alsaq ki, bəhc olunan ildə Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edilmişdi, onda həmin ildə taxıl, pambıq zəmiləri və digər sahələrin belə bol məhsul verməsi şübhəli görünə bilər. Təbii ki, müharibənin belə qızğın vaxtında bol məhsul götürmək mümkün deyildi. Təsadüfi deyildir ki, "Naxçıvan əyalətinin statistik təsviri"ndə istehsal olunmuş taxılın miqdarını göstərən iki rəqəm gətirilir: biri yuxarıda qeyd etdiyimiz 250 min, digəri isə 10 min xalvar, yəni 160 min pud rəqəmi, təəssüf ki, birinci rəqəmin dəqiq ili göstərilmir, ikinci rəqəm isə 1828-ci ilə aiddir. Həmin il Naxçıvan xanlığında 10 min pud çəltik istehsal edilmişdir [9, 88].

"Naxçıvan əyalətinin statistik təsviri"ndən məlum olur ki, xanlığın əhalisinin müəyyən hissəsi baramaçılıqla məşğul olurdu. Təkcə Ordubad mahalında 100 min tut ağacı var idi. Ipəkçiliklə Naxçıvan xanı da məşğul olur, öz bağlarında kənd əhalisinin əməyindən istifadə edirdi [9, 89]. Naxçıvan xanlığında bağçılıq da xeyli inkişaf etmişdi, xanlıq öz meyvələri ilə şöhrət tapmışdı. Naxçıvan meyvələri qurudulur və ixrac edilirdi. Naxçıvan üzümü də məşhur idi. Burada 60 növ üzüm yetişdirilir. Arıçılıq bütün xanlıqda olmasa da, Ordubad mahalında geniş yayılmışdı. Burada 1000 arı təknəsi var idi. Adı çəkilən mənbə daha sonra məlumat verir ki, burada maldarlıq da geniş inkişaf

etmişdi. Rusiya tərəfindən işğal ərəfəsində Naxçıvan xanlığında 10 min baş qara mal, 15 min qoyun-keçi, 1500 at var idi [9, 93].

**Şəki xanlığının** bütün mahallarında əkinçiliklə məşğul olurdular. Xanlığın Şəki mahalında Bozdağ adlanan yer taxılçılıq üçün çox yararlı olub əkinlər süni suvarma tələb edirdi.

Şəki xanlığının kənd əhalisinin başlıca məşğuliyyəti ipəkçilik, daha doğrusu barama yetişdirmək idi. Xanlığın təkcə Ağdaş mahalında 204 tut bağı var idi. “Qafqaz təqvimi”nin məlumatlarına görə Şəki xanlığında bağçılıq da xeyli inkişaf etmişdi. Xanlıqda otlaqların kifayət qədər olmaması üzündən burada başqa xanlıqlara nisbətən maldarlıq zəif inkişaf etmişdi. Burada yaylaqlar alp çəmənlikləri olan dağlarda, qışlaqlar isə Ərəş, Ağdaş, Xaçmaz və Bum mahallarında, həmçinin şəhərin aşağı hissəsində idi. Şəhərin bu hissəsi Qışlaq adlanırdı [6, 411]. Qeyd etmək lazımdır ki, Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında Şimali Azərbaycan xanlıqlarının təsərrüfat vəziyyətinin tam mənzərəsini canlandırmaq mümkün deyildir. Boşluğu aradan qaldırmaq üçün dövrün digər mənbələri və tarixi ədəbiyyatı bizə yardımçı olmuşdur.

**İrəvan xanlığı**nın sosial-iqtisadi həyatı bütövlükdə Azərbaycanın sosial-iqtisadi münasibətlərinin tərkib hissəsi idi. XVIII əsrdə Azərbaycanın qərbində-Ağrı vadisində, Naxçıvanda, Qafanda və ətraf əyalətlərdə əmtəə istehsalı kifayət qədər geniş inlişaf etmişdi.

Dövrün mənbələrindən məlum olur ki, İrəvan xanlığından ixrac olunan mallar əsasən kənd təsərrüfatı məhsulları idi. İ.Şopenin qələmə aldığı əsərində kənd təsərrüfatı məhsullarının əksəriyyətini Azərbaycan türkcəsində belə sadalayır: “İrəvan ətrafındakı bölgələr, Qırxbulaq, Sərdarabad, Şorəyəl, Pəmbək taxıl istehsalı ilə məşhur idi. Əkin sahələri əsasən yazlıq və payızlıq olurdu. Burada arpa, buğda, küncüt, pambıq, gənəgərçək və s. əkilirdi”[10, 738-746].

İrəvan xanlığında texniki bitkilərdən pambıq əsasən aran yerlərində becərilirdi. Zəngibasar, Sərdarabad və Sürməli mahalları pambıq istehsalına görə fərqlənirdi [10, 743]. İ.İ.Şopenin məlumatlarından aydın olur ki, İrəvan xanlığının kənd təsərrüfatında ipəkçilik də geniş yayılmışdı. Müəllifə görə, bütün xanlıq ərazisində toxmaçarlıqların çox olması burada vaxtilə ipəkçiliyin böyük rol oynamasından xəbər verirdi [10, 753].

XVIII əsrin II yarısında İrəvan xanlığında maldarlıqla məşğul olan əhalinin bir hissəsi bazarda satmaq üçün yağ, pendir və digər süd məhsulları istehsal edirdi. Heyvandarlığın başqa sahələrinə nisbətən qoyunçuluq daha çox inkişaf etmişdi. Qırxbulaq, Göyçə, Abaran, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın, Sürməli mahallarının otlaqları maldarlıq üçün daha əlverişli idi. Maldarlıq əsasən yaylaq-qışlaq və qismən köçəri maldarlığa bölünmüşdü [10, 519-525]. Məlumatlar digər Azərbaycan xanlıqlarında olduğu kimi İrəvan xanlığında kənd təsərrüfatında oxşar vəziyyəti təsdiq edir. Beləliklə, Qafqaz Arexeoqrafiya Komissiyasının sənədlərindən və dövrün digər mənbələrindən əldə olunan məlumatlar göstərir ki, ölkədə vahid siyasi hakimiyyətin yoxluğu üzündən vahid torpaq fondunun olmadığı bir şəraitdə dövlət torpaqları üzərində

ali mülkiyyətçilik hüququ bütün ölkənin əvəzinə ayrı-ayrı xanlıqların hüdudları çərçivəsində məhdudlaşmışdı. Bütün xanlıqlarda kənd təsərrüfatında oxşar vəziyyət hökm sürürdü, kənd əhalisinin başlıca məşğuliyyəti əkinçilik olub, əsasən, buğda çəltik və arpa yetişdirilirdi. Dağlıq və dağətəyi yerlərdə ipəkçilik, barama və tütünçülük geniş yayılmışdı.

## ƏDƏBİYYAT


1. AKAK, III cild, Tiflis, 1869, sənəd 85
2. AKAK, IV cild, Tiflis 1870, sənəd 95, sənəd 37
3. Bayramova N. Şamaxı xanlığı. Bakı: Təhsil, 2009, 396 s.
4. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: Minarə, 2000, 224 s.
5. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.
6. Кавказский календарь на 1852 г., Тифлис 1851, 3-го отд., с. 103-123.
7. Gülmalıyev M.M. XVIII əsrin son rübü-XIX əsrin I yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı: Elm, 1989, 280 s.
8. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Т. 1, СПб, 1836.
9. Статистическое описание Нахичеванской провинции. Тифлис, 1833.
10. Шопен И. И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.: типография Императорской Академии Наук, 1852.


## ПОЛОЖЕНИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В ДОКУМЕНТАХ КАВКАЗСКОЙ АРХЕОГРАФИЧЕСКОЙ КОМИССИИ

**Дж.Ш.КУЛИЕВ**

### РЕЗЮМЕ

В статье указывается на состояние сельского хозяйства, созданного со стороны колониальной царской России в начале XIX века в Северном Азербайджана. На основе авторского исследования, можно полагать, что основой сельского хозяйства у всех народов одно начало, и очень много сходного основным занятием сельского хозяйство является земледелие, сеяние пшеницы, ячменя, риса. Все эти данные собраны на основе материалов Кавказской Археографической Комиссии как первоисточник по истории сельского хозяйство по Северному Азербайджану.

**Ключевые слова:** сельское хозяйство, положение, документы Кавказской Археографической Комиссии

**THE SITUATION OF AGRICULTURE IN NORTH AZERBAIJAN ON THE BASIS OF ARCHEOGRAHICAL COMMISSION OF CAUCASUS**

**J.Sh.GULIYEV**

**SUMMARY**

The article deals with the situation of agriculture in North Azerbaijan after the occupation of Tsarist Russia at the beginning of the XIX century. The author comes to such a conclusion that the situation was the same in the agriculture of all the khanates.

All of these are analyzed on the basis of the documents of Archeographical Commission of the Caucasus which is the first sources in the objective form.

**Key words:** Agriculture, situation, documents of Archeographical Commission of the Caucasus